# *Vətən yaşasın deyə...*




Vətən yaşasın deyə ölümə gedən, şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızın ölümsüz xatirəsi önünə sonsuz sayğı duyğuları ilə qoyulmuş şeir çələngi kimi araya-ərsəyə gəlib Coşqun Xəliloğlunun "Vətən yaşasın deyə" kitabı. Doğma, əziz Qarabağımıza zəfər gətirən unudulmaz 44 günün vəsfi, o gözəl günü bizə bəxş edən qəhrəman oğullarımıza xalq sevgisinin ifadəsi əksini tapıb kitaba daxil edilən şeirlərdə. Oxuduqca hiss edirsən ki, həmin o 44 gün Coşqun Xəliloğlu üçün qürur mənbəyidi, şərə, yalana qarşı apardığımız mübarizənin qələbə himnidi, milli taleyimizin xoş xəbərçisi, müjdəçisidir. Bu müjdənin, xoş xəbərin yaşatdığı könül xoşluğu, vüqar duyğusu kitaba daxil edilən şeirdən-şeirə yol açır. Bir şeirdə yaşanan sevginc, duyğu hissi o birində davam edir. Mövzu davamlılığı bir-birini yetərincə izləyir.

***A.ƏSGƏRLİ***

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 16 sentyabr.- S. 32.